ÜMUMMİLLİ LİDER MÜSTƏQİLLİYİN AÇARINI ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ, ENERJİ ASILILIĞINDAN XİLASDA GÖRÜRDÜ

Ölkə iqtisadiyyatının, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründə dinamik inkişafı bir çox mühüm amillərlə yanaşı, elektrik enerjisi sistemi ilə də bağlıdır. Hazırda Azərbaycan müstəqil elektrik enerji sisteminə malikdir və bunun əsası ötən əsrin 70-ci illərində qoyulmuşdur.

Azərbaycanda elektrik enerjisi istehsalı hələ XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlansa da, uzun illər ərzində bu sahədə inkişaf ləng getmişdir. 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra respublikanın sosial-iqtisadi həyatının mühüm sahələrindən biri olan elektrik enerjisi sisteminin sürətli inkişafını təmin etmək məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, bir çox irimiqyaslı layihələr reallaşdırılmışdır. Ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdır. Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu. 1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran-Azərbaycan "Araz" SES adı altında gücü 22 MVt olan stansiyanın inşası, 1972-ci ildə "2 saylı Sumqayıt İstilik Enerji Mərkəzi"nin gücünün 220 MVt-ya çatdırılması, 1976-1977-ci illərdə Sərsəng su anbarı və gücü 50 MVt olan eyniadlı su elektrik stansiyasının istifadəyə verilməsi məhz ümummilli liderin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Bu illərdə həmçinin gücü 380 MVt olan Şəmkir Su Elektrik Stansiyası istismara buraxılmışdır. Ötən əsrin 80-ci illərində və elə bu gün də Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası sayılan, gücü 2400 MVt olan 8 enerji blokundan ibarət, kritik parametrdən də yüksək parametrlərdə işləmək imkanına malik "Azərbaycan" İES istismara buraxılmışdır.

Azərbaycanın öz taleyinin sahibi, müstəqil dövlət kimi mövcud olması üçün bütün zəruri əsasları məhz Heydər Əliyev təmin etmişdir. Ulu öndər ölkəmizin siyasi və iqtisadi müstəqilliyini vəhdətdə möhkəmləndirdi, hərtərəfli tərəqqini təmin edən milli inkişaf modeli ilə dövlətimizi regional inkişafın hərəkətverici qüvvəsinə, beynəlxalq arenada nüfuzlu, etibarlı tərəfdaşlıq və sabitlik mərkəzinə çevirdi, mükəmməl strategiya və qlobal əməkdaşlıq layihələri ilə bugünkü qüdrətli Azərbaycanın müəllifi oldu. Ümummilli lider müxtəlif ictimai-siyasi formasiyalarda müstəqilliyin açarını, əsasən, enerji təhlükəsizliyində, enerji asılılığından xilasda görürdü. Bu gün qlobal enerji böhranı, enerji müstəqilliyinin dünyanın aparıcı dövlətlərinin gündəliyində bir nömrəli məsələyə çevrilməsi və bu turbulentlikdə Azərbaycanın enerji təchizatçısı kimi strateji mövqeyinin güclənməsi də bir daha Heydər Əliyevin enerji təhlükəsizliyinə dair baxışlarının zamanın fövqündə olduğunu təsdiqləyir.

"Azərbaycan" İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. 80-ci illərin əvvəllərində inşasını hətta SSRİ miqyasında ümumxalq tikintisi səviyyəsinə qaldırmağa müyəssər olduğu bu əzəmətli tikili bu gün də ümummilli liderin bütün qurub yaratdıqları kimi onun nurlu şəxsiyyətinin möhtəşəm abidəsi kimi ucalır. Ulu öndər Heydər Əliyevin səyi nəticəsində bu stansiyanın inşası prosesinin ümumittifaq səviyyəsində aparılması tikinti prosesinə ən peşəkar mütəxəssislərin cəlb olunmasına, müasir texniki vasitələrdən istifadəyə şərait yaratmışdır.

Stansiyanın birinci enerji blokunun işə salınması Azərbaycanda fərəh dolu əlamətdar hadisəyə çevrildi. Ulu öndərimizin bu münasibətlə 1981-ci ilin 20 oktyabrında Mingəçevir şəhərinə gəlişi, stansiyanın vəziyyəti ilə tanış olaraq energetiklərə və inşaatçılara öz dəyərli tövsiyələrini verməsi bu tarixi təqvimdə Azərbaycan energetiklərinin peşə bayramı günü kimi müəyyənləşdirmiş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli sərəncamına əsasən, həmin gün "Energetik günü" kimi qeyd edilir.

Elektrik stansiyalarının inşası ilə yanaşı, elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. O illərdə 330 kV-luq Əli Bayramlı İES - Ağdam - Gəncə - Ağstafa, Əli Bayramlı - Yaşma-Dərbənd, 5-ci Mingəçevir, 500 kV-luq 1-ci və 2-ci Abşeron, Muxranis - Vəli və digər elektrik verilişi xətləri, 330/110/20 kV-luq Yaşma, Gəncə, Ağstafa, 330/110/10 kV-luq İmişli, 500/330/220 kV-luq Abşeron, 220/110/10 kV-luq Hövsan, Nizami, Müşfiq, Səngəçal, Masallı, Ağsu, Babək və başqa qovşaq yarımstansiyaları istismara verildi. Bununla da elektrik enerjisi sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Ümummilli lider Heydər Əliyevin bu sahədə özünəməxsus uzaqgörənliklə müəyyənləşdirdiyi mükəmməl strateji xəttin uğurla həyata keçirilməsi və hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsi ölkəmizi regionun aparıcı dövlətinə, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təminatçılarından birinə çevirmişdir. Ölkə iqtisadiyyatının inkişaf sürətini nəzərə alan dövlət başçısı "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) Dövlət Proqramı"nı təsdiq etmişdir. Ötən dövr ərzində dövlət proqramının uğurla həyata keçirilməsi nəticəsində respublikanın elektrik enerjisi sistemində generasiya gücünün artımı 2000 MVt-dan çox olmuşdur. Elektrik enerjisinin ötürülməsi sistemində isə ümumi gücü 2000 meqavoltamperə yaxın 500-dən artıq yeni transformator quraşdırılmış və ümumi uzunluğu 30 min kilometrdən artıq elektrik verilişi xətləri istifadəyə verilmişdir.

Hazırda iqtisadiyyatı gündən-günə inkişaf edən, elektrik enerjisi sisteminin dayanıqlığı təmin olunmuş Azərbaycanda yeni generasiya güclərinin tikilib istifadəyə verilməsi nəticəsində respublikamız qonşu dövlətlərin elektrik enerjisi təhlükəsizliyində də mühüm rol oynayır.

Bu gün respublikanın elektrik enerjisi sisteminin tərkibinə 13 istilik elektrik stansiyası (Azərbaycan İES, Şirvan İES, Sumqayıt ES, "Şimal" İES, Səngəçal ES, Bakı İEM, Bakı ES, Sahdağ ES, Astara ES, Xaçmaz ES, Şəki ES, Naxçıvan ES və Naxçıvan İES) və 6 su elektrik stansiyası (Mingəçevir, Şəmkir, Yenikənd, Varvara, Araz, Vayxır SES) fəaliyyət göstərir. Enerji sisteminin tərkibinə gərginliyi 500, 330, 220 və 110 kilovolt olan 200-dən artıq yarımstansiya daxildir. Bu yarımstansiyalarda mövcud olan transformatorların ümumi gücü 20000 meqavoltamperdən artıqdır. Gərginliyi 110 kV və ondan artıq olan 300-dən artıq elektrik verilişi xəttinin ümumi uzunluğu 8000 kilometrdən çoxdur. Gərginliyi 35, 10, 6 və 0,4 kilovolt olan paylayıcı xətlər də daxil olmaqla elektrik verilişi xətlərinin ümumi uzunluğu 100000 kilometrdən artıqdır.

Ölkə energetikləri həmişə olduğu kimi, bundan sonra da dövlətimizin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, xalqımızın rifahının daha da yüksəldilməsi naminə və ulu öndər Heydər Əliyevin ideyalarının gerçəkləşməsi üçün var qüvvə ilə çalışacaq, onun layiqli davamçısı, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək, qarşıya qoyulmuş mühüm vəzifələrin yerinə yetirilməsinə nail olacaqlar.

Elçin Qubadov,
"Azərişıq" Sabunçu rayon enerji təchizat və satışı idarəsinin rəisi

TÜRK DÜNYASI NOTARİAT BİRLİYİ TÜRK DÖVLƏTLƏRİ ARASINDA NOTARİAT SAHƏSİNDƏ ƏN YAXŞI TƏCRÜBƏLƏRİ PAYLAŞMAĞA İMKAN VERƏCƏK

Xəbər verildiyi kimi, bu günlərdə Türkiyədə Türk dünyası dövlətləri arasında yeni birlik - Notariat Birliyinin yaradılması haqqında müvafiq Anlaşma Memorandumu imzalandı. Bununla bağlı tədbirdə iştirak edən Azərbaycan Ədliyyə Nazirliyi nümayəndə heyətinin üzvü, Ədliyyə sahəsində xidmətlər baş idarəsinin rəisi İlqar Məmmədov medianın suallarını cavablandırmışdır.

- Hörmətli İlqar müəllim, türk dövlətlərinin notariusları arasında belə birliyin yaradılması ilə bağlı keçirilən tədbirin iştirakçısı olaraq təəssüratlarınızı öyrənmək istərdik.

- Təşəkkür edirəm. Məlum olduğu kimi, Türk dünyası coğrafi baxımdan geniş əraziyə malik olmaqla Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan və Qırğız kimi ortaq tarixə köklərə malik türk dövlətlərini və xalqlarını bir-biri ilə birləşdirir və bu gün onlar müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla əməkdaşlıq edirlər.

Burada Türk ölkələri dövlət başçılarının 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə görüşündə imzalanmış Saziş ilə yaradılmış Türk Dövlətləri Təşkilatını xüsusi qeyd etmək istərdim. Həmin təşkilat çərçivəsində əlaqələr 20-dən çox yüksək səviyyəli toplantıların geniş çeşidi ilə fərqlənir. Artıq Ədliyyə Akademiyalarının Tədris üzrə Türk Şəbəkəsi yaradılmışdır.

İndi isə Türk Dünyası ölkələrinin notariusları arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə yeni bir təşkilatın yaradılması qərara alındı. Bununla bağlı qardaş Türkiyənin Ədliyyə Nazirliyinin yüksək səviyyədə təşkilatçılığı ilə Ankarada mötəbər tədbir keçirildi və türk dövlətləri, o cümlədən insanlara hüquqi xidmətlərin göstərilməsində əməkdaşlığa önəm verən Azərbaycan orada ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olundu. Bütövlükdə türk dünyasından 500-dək nümayəndə, həmçinin Türk Dövlətləri Təşkilatının məsul şəxsləri bu tədbirdə iştirak edirdi.

Tədbirdə türk dövlətlərinin ədliyyə, notariat orqanlarının rəhbərləri çox maraqlı çıxışlar edərək notariat sahəsində təcrübələri ilə bölüşdülər. Bildirməliyəm ki, Azərbaycanın bu sahədə nailiyyətləri, xüsusilə rəqəmsal innovasiyalar tətbiq etməklə əhaliyə göstərdiyi çevik, asan və şəffaf notariat xidmətləri iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Bu mənada yeni yaradılan Notariuslar Birliyi türk dünyasının hüquq və ədliyyə seqmentinin inkişafına və əlaqələrin möhkəmlənməsinə mühüm töhfə olmaqla türk dövlətləri arasında notariat sahəsində ən yaxşı təcrübələri paylaşmağa, qurumlar arasında işbirliyini inkişaf etdirməyə imkan verəcəkdir.

Türk dövlətlərin notariat palatalarının rəhbər şəxsləri tərəfindən imzalanmış Anlaşma Memorandumu çərçivəsində notariat qanunvericiliyinə və praktikalarına, notariat xidmətlərinin keyfiyyətinin artırılmasına dair məlumat, təcrübə və bilik mübadiləsi həyata keçiriləcək, bu məqsədlə notariat fəaliyyətləri və iş prosedurlarını öyrənmək üçün qarşılıqlı məsləhətləşmələr, görüşlər, simpoziumlar, seminarlar və tanışlıq səfərləri təşkil ediləcəkdir.

- Bəs aparılan notariat əməliyyatları türk ölkələrində eyni hüquqi qüvvəyə malik olacaqmı, yəni, istənilən notariusda təsdiq edilən hazır sənədi digər türk dövlətlərində əldə etmək mümkündürmü?

- Qeyd etməliyəm ki, bu gün ölkəmizin notariatının imkanları ən yüksək standartlara cavab verir. Bu sahədə tətbiq edilən qabaqcıl həllər və müasir avadanlıq vasitəsilə notariuslar müxtəlif notariat hərəkətlərini elektron qaydada rəsmiləşdirmək imkanına malikdirlər. Hər hansı hazır notariat sənədinin bilavasitə digər türk ölkələrin notariat qurumlarında əldə olunmasına gəlincə, notariuslar arasında qurulan bu yeni əməkdaşlıq formatında mövcud olan informasiya sistemlərinin inteqrasiya hesabına şəbəkənin yaradılması və notariat sənədlərinin Birliyin üzvü olan dövlətlərin notariat ofislərində əldə edilməsi məsələsinə gələcəkdə baxıla bilər.

Hazırda isə ölkəmizdə notariat ofislərində təsdiq olunan sənədlər innovativ brendimiz olan "Mobil notariat" vasitəsilə əldə olunur. Geniş populyarlığa malik və yüksək məmnunluq doğuran bu tətbiq vasitəsilə insanlarımız dünyanın istənilən yerində, o cümlədən türk dövlətlərində müxtəlif növ notariat xidmətlərindən fasiləsiz rejimdə mobil telefonları ilə yararlana bilirlər.

Ölkəmizdə investisiya mühitinin əlverişliyinin artırılması məqsədi ilə Ədliyyə Nazirliyi tərəfindən xarici sənədlərin məsafədən tərcümə edilməsi və notariat qaydasında rəsmiləşdirilərək aidiyyəti orqana təqdim edilməsi elektron xidməti hazırlanmış və yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Elektron xidmətlərin genişləndirilməsi çərçivəsində Azərbaycanda elektron imzalanmış sənədlərin xaricdə təqdim edilməsini mümkün edəcək elektron apostil proqramının da istifadəyə verilməsi nəzərdə tutulur.

Oktyabrın 11-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə "Hənifə Məlikova - Zərdabi adına təqaüd proqramı - 2023"ün təqdimat mərasimi keçirilib.

"HƏNİFƏ MƏLİKOVA - ZƏRDABİ ADINA TƏQAÜD PROQRAMI - 2023"ÜN TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB

Mərasim Dövlət Himninin səsləndirilməsi ilə başlayıb və ardınca layihəyə həsr olunmuş videoçarx nümayiş olunub.

Təqdimat mərasimində elm və təhsil naziri Emin Əmrullayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Bəxtiyar Əliyev, millət vəkilləri, özəl sektor əməkdaşları və digər qonaqlar iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova təqaüd proqramlarının əhəmiyyətindən danışaraq hazırda ən vacib sahələrdə təhsil almaq istəyən qızların sözügedən proqramlar sayəsində arzularına çatdıqlarını bildirib.

Bu gün ailələrdə qızların təhsilə, idarəetməyə cəlbi ilə bağlı mövcud problemlərin aradan qaldırılmasında bütün cəmiyyətin iştirakının önəminə diqqət çəkən Bahar Muradova çıxışının sonunda təqaüdə layiq görülən gənc qız tələbələri təbrik edib və onlara uğurlar arzulayıb.

Azərbaycan qadını və təhsil mövzusuna toxunan elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, bir çox sahədə olduğu kimi, bu sahədə də ilklərə imza atan Azərbaycan istər Şərq, istərsə də müsəlman ölkələri sırasında xüsusi yer tutur.

Təqaüd proqramlarının əhəmiyyətindən söz açan Emin Əmrullayev qızların təhsilə cəlb edilməsi, bu prosesə dəstək göstərilməsinin prioritet vəzifələrdən olduğunu vurğulayıb, qadınların təhsilli, genişdünyagörüşlü olmasının uşaq və gənclərimizin də nümunəvi tərbiyə və təhsilinin formalaşmasına təsir göstərəcəyini bildirib.

Sonda təqaüd qalibləri olan gənc qız tələbələri təbrik edən Emin Əmrullayev onların da öz növbələrində daha çox insanın yaxşı təhsil alması üçün əllərindən gələni edəcəklərinə əminliyini vurğulayıb.

Çıxış edən Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Bəxtiyar Əliyev bu il üçün təqaüd alan gəncləri təbrik edib. Növbəti illərdə sayın daha da artacağına inamını ifadə edən komitə sədri bildirib ki, bu gözəl təşəbbüsə bütün təşkilat və sahibkarların qoşulması, dəstək göstərənlərin sayının çoxalması önəmlidir.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov təqaüd alan qızların əksəriyyətinin yüksək bal topladıqlarını bildirib. Fondun indiyədək həyata keçirdiyi layihələr, təqaüd proqramlarından söz açan sədr bu sahədə əməkdaşlığın genişləndirildiyini vurğulayıb.

Çıxışlar dinlənildikdən sonra layihəyə dəstək göstərən təşkilatlara - "British Petroleum", "Neqsol Holding", "İnci Group" və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına təşəkkürnamələr verilib. Bununla yanaşı, dəstək göstəriləcək 54 tələbəyə sertifikat və gül dəstələri təqdim edilib.